# "Xocalı: Zamanın dayandığı an!"

Dünyanı sarsıdan Xocalı soyqırımının 34-cü ildönümü münasibətilə N.Nərimanovun xatirə muzeyinin və Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının birgə təşkilatçılığı ilə muzeydə "Xocalı: Zamanın dayandığı an!" adlı tədbir keçirilib.



Tədbirdə Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının (DİA) professoru, tarix elmləri doktoru Həvva Məmmədova, həmin akademiyanın "Qarabağ İrsini Araşdırma Mərkəzi" nin rəhbəri, profesor, siyasi elmlər doktoru Elçin Əhmədov, "Vətən səsi" qəzetinin baş redaktoru Elşən Əliyev, Xocalı sakini, Vətən müharibəsi qazisi İmran Rəcəbov, DİA-nın tələbələri, 2013-cü il Respublika Muğam Musabiqəsinin qalibi Təbriz Yusubov, müşayiətçi Ceyhun Qurbanov, KİV nümayəndələri və muzey əməkdaşları iştirak ediblər.

Tədbiri muzeyin direktoru Ləman Hüseynova açaraq qonaqları salamlayıb. Xocalı qurbanlarının xatirəsi birdəqiqəlik sükutla yad edilib. Tarix elmləri doktoru Həvva Məmmədova çıxış edərək Xocalı soyqırımının Azərbaycan xalqına və bəşəriyyətə qarşı yönəlmiş vəhşilik aktı olduğunu, bu faciənin dünya ictimaiyyəti tərəfindən tanınmasının və ona hüquqi-siyasi qiymət verilməsinin vacibliyini bildirib. Həvva xanım Xocalı həqiqətlərini unutmamağı və tarixi yaddaşı qorumağı gənc nəslə tövsiyə edib.

Professor, siyasi elmlər doktoru Elçin Əhmədov çıxış edərək deyib ki, bir şuşalı olaraq Xocalının ağrısını ürəyimdə ikiqat hiss edirəm: "Bu torpaqların harayını eşitmişəm, yarasını, susdurulmuş talelərini görmüşəm. Xocalıda qətlə yetirilən körpələr, analar, günahsız insanlar təkcə bir şəhərin deyil, bütün Vətənin qanayan yarasıdır. Biz bu ağrını yaddaşımızda daşıyırıq, çünki unutmaq xəyanət, xatırlamaq isə borcdur. Xocalı bizim vicdanımızdır və bu vicdan heç vaxt susmayacaq".

"Xocalıda məhv edilən təkcə insanlar deyil, uşaqların arzuları, anaların ümidləri, ailələrin sabahıdır" - deyə "Vətən səsi" qəzetinin redaktoru Elşən Əliyev bildirib.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin kamança müəllimi Təbriz Yusubov Ceyhun Qurbanovun müşayiəti ilə "Xocalı ağrısı" kompozisiyasını ifa ediblər. DİA tələbələrinin Xocalı soyqırımına həsr etdikləri təqdimatlarla davam edən tədbirin sonunda muzeyin direktoru Ləman Hüseynova iştirakçılara təşəkkürünü bildirib.

Tədbirdə Xocalı hadisələrinə həsr olunmuş sənəd, qəzet, jurnal və fotolardan ibarət sərgi də nümayiş etdirilib.

***V.MƏHƏRRƏMOV,***
***"Azərbaycan"***

Azərbaycan.- 2026.- 27 fevral (№ 38).- S.10.